**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**
**Q Ə R A R**
**№ 5**

**Bakı şəhəri** **16 may 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Sona Tərlan qızı Rəhmanovanın Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il aprel ayının 18-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Rəhmanova Sona Tərlan qızı Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il yanvar ayının 13-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il aprel ayının 18-də Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Gündüz Məmmədov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Ruxsarə Səlimli və müstəqil ekspert Musa Cabbarovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Rəhmanova Sona Tərlan qızına müsahibə komissiyasının üzvləri Gündüz Məmmədov tərəfindən 13 bal, Ruxsarə Səlimli tərəfindən 14 bal, Musa Cabbarov tərəfindən 15 bal verilmiş və nəticədə iştirakçı 14 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 20.04.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Rəhmanova Sona Tərlan qızının 20 aprel 2023-cü il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsinin aparatında Kənd təsərrüfatı statistikası şöbəsinin Bitkiçilik statistikası sektorunun məsləhətçi vəzifəsinin tutulması üçün 2023-cü il aprel ayının 18-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Aslı ilə düzdür: